# Dünya muzeylərində girov saxlanan Cənubi Azərbaycan xalçaları - "fars xalçaları" hardan çıxdı...

**"Güney Azərbaycanın tarixi irsi" rubrikasında doğma Azərbaycan ellərində toxunan, milli ruhumuzu, xalqımızın tarixini, folklorunu, yaşam mədəniyyətini ifadə edən xalçalarımızdan danışmaq istəyirik. Güneyli sənətkarların ürəyinin sevgisindən, barmaqlarının hərarətindən yaranan unukal xalçalar, sehirli xalılar dünya xalqlarını heyrətə salmaqdadır.**



Dünyaya səs salan Güney Azərbaycan xalçaları xalqımızın mədəniyyətinin bir parçasıdır. Bu gün bu xalçaların xeyli bir hissəsi dünya muzeylərində, şəxsi kolleksiyalarda saxlanılır. Amma təəssüf ki, Cənubi Azərbaycan xalçalarını dünyaya "fars xalçası", "İran xalçası" kimi təqdim edirlər. Məlum olduğu kimi, Təbriz xalçaçılıq məktəbi Azərbaycanın ən qədim və məşhur xalçaçılıq məktəbidir. Bu, Təbriz, Ərdəbil, Marağa, Mərənd, Maku, Xoy, Urmiya, Zəncan, Heris, Sərab, Əhmədabad, Əhər, Salmas, Qaradağ, o cümlədən, Qərəcə, Miriş, Görevan, Sennə və başqa xalça məntəqələrini əhatə edir. Bu ərazidə yaşamış türk dilli tayfalar hələ qədimdən xalçaçılığın yaranması və inkişafında mühüm rol oynamış, müxtəlif dövrlərdə İran xalça sənətinin təşəkkülünə ciddi təsir göstərmişlər. Orta əsrlərdə Şərqin ən mühüm ticarət mərkəzlərindən və zəngin şəhərlərindən olan eləcə də Avropa ilə ticarət əlaqələri xalçaçılıq sənətinin sürətli inkişafına səbəb olmuşdur. Öz kompozisiya tələbatına süjetlərin təfsirinə, parçanın koloritinə və texnologiyasına görə Cənubi Azərbaycan xalçaları XVI əsrdə Təbriz məktəbinin yüksək tərəqqisi dövründə dekorativ tətbiqi sənətin həmin məktəbə xas ənənələrinin inkişafına dəlalət edir. Təbriz xalçaçılıq məktəbinə məxsus olan xalçalar hələ qədim və orta əsrlərdən başlayaraq xarici səyyahların, tacirlərin diqqətini cəlb etməyə başlayıb. Bu səbəbdən də Təbriz xalçalarının dünya bazarlarına çıxışı həyata keçirilib. Yəni hələ əsrlər əvvəldən bu xalçalar dünyaya çıxırdı.

Son əsrlər isə Təbriz xalçaları kütləvi olaraq xarici muzeylərə, şəxsi kolleksiyalara, auksionlara daşındı. Çox təəssüflər olsun ki, son yüz ildə bu xalçalar "fars xalçaları" olaraq qələmə verilməyə başlayıb. Halbuki, bu xalçalardan farsların xəbəri belə yoxdur. Sadəcə, keçən çağlarda Pəhləvilər, indi isə molla rejimi bunu belə təbliğ edir.

Bu gün dünya muzeylərində çox unikal xalçalarımız var. Onlardan biri də 1539-cu ildə Səfəvi hökmdarı I Təhmasibin sifarişi ilə Şeyx Səfi məscidi üçün toxunan "Şeyx Səfi xalçası" və ya "Ərdəbil xalçası"dır. Hazırda Londonda "Viktoriya və Albert" muzeyində saxlanılan Təbrizdə toxunmuş "Ləçəktürünc" kompozisiyalı məşhur xalı ornamental xalçaların ən gözəl nümunəsi, Təbriz xalçaçılıq məktəbinin şah əsəridir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə xalçanın təkrar nüsxəsi yaradılmışdır. Hazırda həmin üzü köçürülmüş nüsxə Azərbaycan Müasir İncəsənət Muzeyində nümayiş etdirilir.

Dünyanın elə muzeyi tapılmaz ki, orada Təbriz xalçaları olmasın 1522-1523-cü illərdə Təbrizdə toxunan "Ovçuluq xalçası Milanın "Poldi-Peccoli" Muzeyində, XVI əsrdə Təbrizdə toxunan "Heyvani" xalça Londonun "Viktoriya və Albert" Muzeyində, XVI əsrin ortalarında Təbrizdə toxunan "Heyvani"ni xalça Nyu-Yorkun "Metropoliten" İncəsənət Muzeyində, "Süjetli xalça" Budapeştin Tətbiqi Sənət Muzeyində, XVI əsrin ortalarında Təbrizdə toxunan "Heyvani" xalça Parisdə Dekorativ Sənət Muzeyində, XVI əsrə aid "Heyvani" (Təbriz) xalçası Klarens Moskinin kolleksiyasında, XIX əsrin ikinci yarısında toxunan "Dörd fəsil" xalçası (Təbriz) Bakıda R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində, XX əsrin əvvəlində toxunan "Ağaclı" (Təbriz) xalçası Bakıda Azərbaycan Dövlət Xalça və Xalq Tətbiqi Sənət Muzeyində, "Rüstəm ağ divi öldürür" (Təbriz, XX əsrin əvvəli" xalçası Azərbaycan Dövlət Xalça və Xalq Tətbiqi Sənət Muzeyində, "Rüstəmin Aşkavusla döyüşü" (Təbriz, XX əsrin əvvəli) Moskvanın Şərq Xalqları Sənəti Dövlət Muzeyində, "Ömər Xəyyam öz sevgilisi ilə" (Təbriz, XIX əsrin axırı) xalçası Bakıda Azərbaycan Dövlət Xalça və Xalq Tətbiqi Sənət Muzeyində, "Şeyx Sənan" (Təbriz, XX əsrin əvvəli) xalçası Azərbaycan Dövlət Xalça və Xalq Tətbiqi Sənət Muzeyində, "Məlik Məmməd"-(Təbriz, XX əsrin əvvəli) Bakıda Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində, Dərvişlər təsvir olunmuş xalça (Təbriz, XIX əsr) Bakıda R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır.

Çox təəssüf ki, bu siyahı dünya muzeylərində və şəxsi kolleksiyalarda saxlanılan Təbriz xalçalarının hamısını əks etdirmir. Bu səbəbdən ki, qeydetdiyimiz kimi. Bu xalçalar dünya muzeylərində başqa adlarla təqdim olunur. Əlbəttə, zaman gələcək, dünya muzeylərində saxlanılan Azərbaycan xalçalarının (Güney, Qüzey Azərbaycan, Dərbənd, Borçalı Qərbi Azərbaycan, Qərbi Zəngəzur və s ) tam siyahısını əldə edə biləcəyik və sübut edəcəyik ki, bu xalçalar "fars", "İran", "Qafqaz" xalçaları yox, Azərbaycan xalçalarıdır və bu xalçalar Azərbaycanın xalçaçılıq məktəblərinin şah əsərləridir, xalqımızın mədəniyyətinin vacib elementləridir. Şübhəsiz ki, bu istiqamətdə çox işlər görülməlidir. Düşmənlərimiz əsrlər boyu tariximizi silməyə çalışıb, biz isə o tarixi yenidən dirçəldəcəyik. Bizim xalçaları qəsdən "fars" və "Qafqaz" adı ilə təbliğ ediblər ki, dünya seyircisini çaşdırsınlar, amma hazırda aparılan təbliğat sayəsində dünyada Azərbaycan xalçaları barədə ciddi fikir formalaşıb və beynəlxalq ictimaiyyət xalqımızın böyük xalçaçılıq mədəniyyətinə sahib olduğunu yaxşı bilir.

***İradə SARIYEVA***